# Araz-Türk Respublikası

İsmayıl HACIYEV,
*AMEA Naxçıvan Bölməsinin sədri, akademik*
*ismayil_haciyev@yahoo.com*

**Açar sözlər:** Azərbaycan Xalq Cümhuriyyəti, Araz-Türk Respublikası, Cənub-Qərbi Qafqaz Demokratik Respublikası, Naxçıvan, Qəmərli, Mudros müqaviləsi.

**Ключевые слова:** Азербайджанская Народная Республика, Араз-Тюркская Республика, Юго-Западная Кавказская Республика, Нахчыван, Гемерли, Мудросское перемирие.

**Key words:** Azerbaijan Democratic Republic, Araz-Turk Republic, South-West Caucasian Democratic Republic, Nakhchivan, Gamarli, Mudros treaty.

***Məqalədə yeni sənəd və materiallar əsasında Araz-Türk Respublikasının tarixi araşdırılır. Araz-Türk Respublikasının yaradılması zərurəti, yaranma tarixi, mərkəzi, rəhbərləri, bölgəni erməni daşnaklarının basqınlarından qoruması, süqutu, tarixi əhəmiyyəti, Azərbaycan Xalq Cümhuriyyəti və Cənub-Qərbi Qafqaz Demokratik Respublikası ilə əlaqələrinə diqqət yetirilmiş, bir sıra tarixi fakt və hadisələrə aydınlıq gətirilmişdir. Aparılan araşdırmalardan aydın olur ki, bir sıra tədqiqatçıların kitab və məqalələrində bu respublikanın fəaliyyəti lazımi səviyyədə öyrənilməmiş və hətta bəzi yanlışlıqlara yol verilmişdir. Məqalə tarixi fakt və hadisələrin dəqiqləşdirilməsi üçün "Təfəkkür" jurnalının xahişi ilə yazılmışdır.***

Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyət göstərdiyi ilk ildə Naxçıvan bölgəsində və ətraf ərazilərdə Araz-Türk Respublikası yaradıldı. Bu respublikanın tarixi və fəaliyyəti barədə Q.Mədətov, Ə.Əliyev, A.Hacıyev, İ.Musayev, Ş.Tağıyeva, N.Nəsibzadə, T.Əzizov, S.Sadıqov, N.Mustafa, İ.Atnur, A.Gökdəmir, E.Mədətli, H.Cəfərov, A.Abbasoğlu, N.Əliyev, Z.Acar və başqaları monoqrafiya, kitab və məqalələr yazmışlar. Tədqiqatçılar içərisində A.Hacıyev və İ.Musayevin araşdırmalarını xüsusilə qeyd etməliyik. A.Hacıyevin kitabında Qars (Cənub-Qərbi Qafqaz Demokratik Respublikası) və Araz-Türk respublikalarının tarixi (13), Ermənistanın təcavüzünə qarşı bu respublikaların göstərdikləri müqavimət çoxsaylı yeni arxiv materialları əsa-

sında işlənmişdir. Lakin kitabda tarixi həqiqətə uyğun gəlməyən fakt və hadisələrə yer verilməklə yanaşı, bu respublikaların tarixindən kənar məsələlərə də toxunulmuşdur. Professor İ.Musayevin tədqiqatlarında, xüsusilə Araz-Türk Respublikasının tarixinə aid məqaləsində (19) bu respublikanın yaranması, süqutu, ərazisi, mərkəzi, dövlət və idarəçilik orqanları və s. məsələlərlə bağlı problemlərə aydınlıq gətirilmişdir. Bununla belə, hələ də Araz-Türk Respublikasının tarixi və fəaliyyəti ilə bağlı fərqli fikirlər mövcuddur ki, bunların dəqiqləşdirilməsinə ehtiyac vardır.

Qeyd etdiyimiz kimi, Araz-Türk Respublikasının tarixi Azərbaycan tarixşünaslığında "...ən çox maraq doğuran və səthi öyrənilən mühüm elmi problemlərdən biri"dir (19, s. 107). Bu respublikanın yaranması, fəaliyyəti və süqutu Naxçıvan diyarının 1918-1919-cu illərdəki ictimai-siyasi vəziyyəti ilə əlaqədardır.

İlk növbədə Araz-Türk Respublikasının nə vaxt, harada, hansı zərurətdən yaranmasına aydınlıq gətirilməlidir. Məlumdur ki, Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyət göstərdiyi ilk ildə çətin daxili və xarici amillərlə qarşılaşdığından Naxçıvan bölgəsinə istənilən səviyyədə diqqət yetirə bilməmişdir. Bundan istifadə edən erməni qəsbkarları bölgəyə ardı-arası kəsilməyən basqınlar etmiş, əhalini qorxu və vahimə içərisində saxlamış, onları soyqırıma məruz qoymuş, Naxçıvanı azərbaycanlılardan təmizləməyə çalışaraq onu "böyük Ermənistan"a qatmaq istəmişlər. Ancaq yerli əhali mərdliklə mübarizə aparmış, erməni cəlladlarına layiqli cavab vermişdir. Bununla belə, erməni vəhşiliklərinin qarşısını almaq üçün "1918-ci ilin mayın sonunda Naxçıvan və Şərur-Dərələyəz qəzalarının əhalisi Kərim xan İrəvanlının başçılığı ilə Mehmed Vehib paşanın yanına xüsusi nümayəndə heyəti göndərərək" (16, s. 49) Naxçıvan diyarına hərbi qüvvə ilə kömək etməyi xahiş etmişlər. Naxçıvana gələn türk qoşunları yerli könüllü dəstələrin köməyi ilə daşnak quldur dəstələrini qəzadan qovmuşlar.

Birinci Dünya müharibəsində məğlubiyyətə uğrayan Osmanlı dövləti Mudros müqaviləsinin (1918, 30 oktyabr) 11 və 15-ci maddələrinə görə, Azərbaycanı və bütün Qafqazı tərk etməli, müharibədən əvvəlki sərhədlərə çəkilməli idi (23, s. 372). Nuru paşa Azərbaycandan qoşunları çıxardığı kimi, Kazım Qarabəkir paşa da 1918-ci il noyabrın 1-də qərargahı ilə Naxçıvandan qatarla Qarsa yola düşdü. Mudros müqaviləsinin şərtlərini eşidən paşa çox peşman olmuş, demişdi ki, "Qırx illik əsarətdən altı ay öncə qurtulan və erməni məzalimindən ağır yaralar alan... türk-müsəlman əhalisinin yaşadığı bu bölgələrdən biz 1914-cü ilin hüdudlarına çəkilincə yenidən erməni zülmünə məruz qalacaqdır. Buna çarələr düşünüb, tədbirlər görməliyik..." (16, s. 50).

Araz-Türk Respublikasının yarandığı

tarixi şəraiti səciyyələndirərkən Türkiyə qoşunlarının Naxçıvan bölgəsini tərk etmələri ilə əlaqədar olaraq onun ərazi və əhalisinin taleyi üçün doğan təhlükə xüsusi qeyd edilməlidir. Çünki Türkiyə ordu hissələrinin bölgədən çıxdıqları, azərbaycanlı əhalinin özünü və torpağını qorumaq üçün qüvvətli dövlət qurumuna, nizami hərbi qüvvələrə malik olmadığı bir vəziyyətdə ermənilərin siyasəti və fəallaşması ağır nəticələr verə bilərdi. Yaranmış şəraitdə bölgənin müsəlman-türk əhalisinin başçıları məcburiyyət qarşısında qalaraq məhəlli səciyyəli siyasi-dövlət birliyi yaratmaq qərarına gəldilər (18, s. 68).

Bölgənin təhlükəsizliyini təmin etmək və ermənilər tərəfindən işğala yol verməmək üçün Araz-Türk Respublikası yaradıldı. Tarixi tədqiqatlarda Araz-Türk Respublikasının yaranma tarixi və yeri mübahisəlidir. Ə.Əliyevə görə, bu respublika 1918-ci ilin iyul-avqust aylarında, Q.Mədətov, L.Hüseynzadə, S.Sadıqova görə, türk qoşunlarının Naxçıvanı tərk etməsindən əvvəl, A.Hacıyevin fikrincə, 1918-ci ilin noyabrın sonunda, T.Əzizova görə isə 1918-ci ilin noyabrında yarandığı göstərilir. Müəlliflərdən bəziləri (N.Mustafa, Ə.Gökdəmir, Z.Acar və b.) Araz-Türk Respublikasının yaranma tarixini noyabrın 3-ü götürürlər. Professor İ.Musayev bu faktların bəzilərini təhlil etdikdən sonra da dəqiq tarixi göstərə bilməmiş, yaxud göstərməmiş, bunu "təxminən 1918-ci ilin noyabrına, yəni Türkiyə qoşunlarının Azərbaycandan, o cümlədən də Naxçıvan bölgəsindən getdikləri dövrə təsadüf etdiyini yazır" (19, s.112). Bunu isə noyabrın 3-ü və 18-i kimi də götürmək olar. Noyabrın 18-i tarixini isə İ.Atnur qeyd etmişdir (24, s. 96). Nazim Mustafa "Milli mücadilə qəhrəmanı-İbrahim bəy Cahangiroğlu" məqaləsində yazır: "30 oktyabr 1918-ci ildə imzalanan Mudros sazişinə əsasən Türk ordusu 1914-cü il sərhədlərinə çəkilmək məcburiyyətində qaldığından və bununla da ermənilərin həmin əraziləri işğal etmək təhlükəsi yarandığından Ordubaddan Sürməliyədək ərazinin nümayəndələri noyabrın 3-də Qəmərli qəsəbəsinə toplanaraq Araz-Türk hökuməti qurmaq haqqında qərar çıxardılar" (20).

Əhməd Gökdəmir isə yazır: "Bölgənin türk-islam əhalisinin təmsilçiləri Kamerli (Qəmərli – İ.H.) qəsəbəsinə toplaşaraq böyük bir məclis qurmuşdular. Başda Naxçıvan olmaqla Rəvanın güneyindən, Şərur, Eçmiədzin və Sürməlidən gələn nümayəndələr toplanmışdı. Yapılan müzakirələrdən sonra bir hökumət qurulmasına qərar verilmişdi. Hökumət altı üzvdən və bir hökumət rəisindən ibarət idi. 3 noyabr 1918-ci ildə mərkəzi İqdır olmaqla Araz-Türk hökuməti quruldu" (25, s. 45-46). Müəllif əsərinin qeydində yazır ki, burada hökumətin bəyannaməsi vardır və Rüştü bəyə müraciət tarixi 3 noyabr 1918-ci ildir. Ona görə də Araz-Türk Respublikası bu tarixdə yaradılmışdır. Bu fikri və

tarixi Ziya Zakir Acar da təsdiq edir (23, s. 374). **Fikrimizcə, bu müəlliflərin tədqiqatlarını, bir sıra məntiqi mülahizələri, tarixi hadisələrin təhlilini əsas götürsək, Araz-Türk Respublikasının 1918-ci ilin noyabrın 3-də yarandığını təsdiq edə bilərik.**

Araz-Türk Respublikasının yaradılması təşəbbüsü ilə Naxçıvan, Şərur müsəlmanları çıxış etmiş və onların təklifi ilə ordubadlılar da bu siyasi tədbirə qoşulmuşlar. Ordubad Milli Komitəsinin sədri M.Seyidzadə Ordubad əhalisinin bu təşəbbüsü müdafiə etmələrini aşağıdakı amillərlə əlaqələndirir: **"Tiflis və Gəncəyə yolların bağlanması; türklərin Ordubaddan getməsi ilə əlaqədar olaraq şəhərə yardım – ərzaq gətirilməsinin dayandırılması və buna görə də 500 nəfərlik dəstənin buraxılması və yalnız bir rotanın saxlanılması; çatışmazlıqların təşkilati zəifləməsi və kimə tabe olmağın, kimdən göstəriş almağın bilinməməsi; Naxçıvan qəzası və Şərurun müsəlmanlarının da bu cür vəziyyətə düçar olmaları və bizim bir müsəlman – Araz dövlətini yaratmaq qərarına gəlinməsi; Gəncə ilə əlaqələrin kəsilməsi və həm də Araz hökumətinin də AXC hökuməti ilə yaxınlaşmaq istəməsi** (2, 1919, 14 yanvar) və s.

**Göründüyü kimi, Osmanlı qoşunları Azərbaycandan getdikdən sonra Naxçıvan bölgəsinin Ermənistan tərəfindən işğal olunmaq və ermənilərin burada öz hökumətini qura bilmək təhlükəsi diyarın yerli əhalisinin Araz Respublikasını yaratmaqla özünün müvəqqəti müstəqilliyini elan etməsi ilə nəticələnmişdi.**

**Bu respublikanın mərkəzi barədə də fikirlər müxtəlifdir. Tədqiqatlarda Araz-Türk Respublikasının mərkəzinin Naxçıvan, Qars, İqdır, Qəmərli və b. şəhərlər olduğu göstərilir. Quruluş bəyannaməsində İqdır yazılmışdır. İ.Atnur yazır ki, mərkəz rəsmən İqdır göstərilsə də, burada heç bir yığıncaq keçirilməmişdir. Hökumətin elanı və bütün tədbirlər Qəmərlidə olmuşdur** (24, s. 98). **N.Mustafa bir yazısında İqdır göstərsə də, sonradan fikrini dəyişərək yuxarıda adıçəkilən məqaləsində Qəmərli olduğunu yazmışdır** (20). **Ə.Gökdəmir qeyd edir ki, mərkəzi İqdır olmaq üzrə Araz-Türk Hökuməti quruldu** (25, s. 46). **Z.Acar da mərkəzin İqdır olduğunu göstərmişdir** (23, s. 375). **A.Hacıyev, L.Hüseynzadə, İ.Musayev və başqaları Naxçıvan şəhərinin Araz-Türk Respublikasının mərkəzi olduğunu yazmışlar. T.Əzizov, Ş.Tağıyeva və N.Nəsibzadə isə mərkəzin əvvəlcə Qəmərli olduğunu, sonra isə erməni nizami hissələrinin hücumu ilə bağlı Naxçıvana köçürüldüyünü yazırlar** (12, s. 194). **Qars ərazisi Araz-Türk Respublikasının tərkib hissəsi olmadığından onun mərkəzi Qarsda yerləşə bilməzdi.** L.Hüseynzadə "Araz şahiddir" kitabında Naxçıvandakı hadisələrdən bəhs edərək yazır: "Oktyabr ayının son

günləri idi. Kazım Qarabəkir paşanın son iqamətgahı olan Rəhim xanın evinin qarşısında çoxlu adamlar toplaşmışdı... Burada Naxçıvanın gələcək taleyi – dövlətçilik statusu haqqında məsələ müzakirə edilirdi. Bu iclasda Kazım Qarabəkir paşa dedi: "Naxçıvanın gələcək müqəddəratını təmin etmək üçün burada bir hökumət qurulması vacib və zəruridir. Zatən siz naxçıvanlılar milli azadlıq mübarizəsində tarixə şanlı səhifələr yazmışsınız. Dövlətçilik hüququna və ləyaqətinə maliksiniz. Siz bu hüququ, haqqı döyüş meydanlarında düşmənə qələbə çalaraq qazanmışsınız. Şərqin qapısında, Naxçıvanda bir cümhuriyyət qurulmalıdır" (15, s. 46). Burada Araz-Türk hökumətinin Naxçıvanda yaradılmasından söhbət gedir. Qeyd etməliyik ki, L.Hüseynzadə o hadisələrin canlı şahidi olmuşdur.

**Araz-Türk Respublikasının mərkəzi kimi, onun ərazisi barədə də müxtəlif fikirlər irəli sürülmüşdür. General Veysəl Ünüvar yazmışdır ki, "Araz-Türk Hökuməti Ordubaddan Gernibasar (Qəmərli-İ.H.) bölgəsinə qədər dağlarla Araz çayı arasındakı ərazini əhatə edirdi"** (13, s. 16). **N.Mustafaya görə, Ordubaddan Sürməliyədək olan torpaqlar bu respublikanın ərazisinə daxildir** (20). **İ.Musayevlə A.Hacıyevin bu barədə fikirləri üst-üstə düşür. Sadəcə A.Hacıyev Qəmərlini Kəmərli kimi yazmışdır** (26, s. 47). **Beləliklə, Araz-Türk Respublikasının hüdudları Naxçıvan, Şərur-Dərələyəz qəzalarını, Ordubad mahalını, habelə Sərdarabad, Uluxanlı, Vedibasar, Qəmərli, Mehri və s. əraziləri əhatə edirdi** (8, v. 9-9; 19, s. 112). **Sahəsi 8696 kv. km** (22, s. 33), **əhalisi bir milyon nəfərdən artıq olmuşdur.**

Araz-Türk Respublikasının fəaliyyətə başlaması ilə bir sıra dövlət və idarəçilik orqanları da yaradıldı. Araz-Türk Respublikası hökumətinin tərkibi sədrdən və 6 üzvdən ibarət idi. **Hökumətin başçısı naxçıvanlı Əmir bəy Nərimanbəyov idi** (15, s. 46; 17, s. 105-108). Araz-Türk hökumətinin Quruluş bəyannaməsində Əmir bəyin ünvanı "əvvəlinci diktator" kimi göstərilib. M.B.Əliyev "Qanlı günlərimiz" gündəliyində "hərbi diktator" deyə ifadə olunan Əmir bəyin soyadı bir neçə yerdə Nərimanbəyov yazılmışdır. İbrahim bəy Cahangiroğlu "Xatirə"lərində Araz-Türk hökumətinin başçısını Əmir bəy Vəzirov olaraq ifadə etmişdir. Ə.Gökdəmir əsərində (23, s. 46, 49) hökumət başçısını Əmir bəy Əkbərzadə kimi işlətmişdir. İ.Atnur əsərində (24, s. 97) Əmir bəyin soyadını Zimanbəyzadə, Z. Acar da bunu Zamanbəyzadə (23, s. 375) kimi qeyd edir. Nazim Mustafa qeyd etdiyimiz məqaləsində "hökumət rəisi naxçıvanlı Əmir bəy Əkbərzadə"nin olduğunu göstərir. İ.Musayev "Araz Respublikası hökumətinin sədri Əmir bəy Əkbərzadə olmuşdur" deyə bəhs edir (19, s. 116). XX əsrin 20-ci illərinin hadisələrinin iştirakçısı L.Hüseynzadə isə "Əmir bəy

Nərimanbəyov ilk hökumətin başçısı seçildi" yazır (15, s. 46). Göründüyü kimi, Əmir bəyin soyadını müəlliflər müxtəlif formalarda işlətmişlər. **Müsəlman Milli Şurasının katibi olmuş Mirzə Bağır Əliyevin və Lətif Hüseynzadənin fikirlərini əsas götürərək Əmir bəyin soyadı Nərimanbəyov olmuşdur.**

**Araz-Türk hökumətinin tərkibində aşağıdakı nazirliklər yaradılmışdır: Hərbi (İbrahim bəy Cahangiroğlu), İnzibati (Bağır bəy Rzazadə), Maliyyə (Qənbər Əli bəy (Qənbərəlı bəy) Bənəniyarlı), Ədliyyə (Məmməd Bəyzadə), Xarici İşlər (Həsənağa Şəfizadə), Şeyxülislam (Mirzəhüseyn Mirzə Həsənzadə və Lütfi Xoca Ekid Əfəndi), Fəxri üzv və aşirət rəisi (general Əli Əşrəf bəy)** (24, s. 46-49; 25, s. 98-99).

**Nazirlər Şurasının sədri Əmir bəy Nərimanbəyov bölgə əhalisi arasında və siyasi dairələrdə çox bacarıqlı, vətənpərvər və millətsevər bir şəxsiyyət kimi dəyərləndirilirdi** (21, s. 32). **Osmanlı dövlətinin Araz-Türk Respublikası hökuməti yanındakı daimi hərbi müşaviri Xəlil bəy, Kalbalı xan, Cəfərqulu xan, Abbasqulu xan və başqaları da respublikanın fəaliyyətinə yaxından yardım göstərənlərin sırasında idilər.**

Araz-Türk Respublikasında bir sıra dövlət və idarəçilik orqanları təşkil edilmişdi. Araz-Türk Respublikasının Parlamenti yaradıldı, lakin Parlament fəaliyyətini genişləndirə bilmədi (28, s. 55). "Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin təsisi haqqında" qanunda Azərbaycan Parlamentinə Naxçıvan, Şərur və Ordubaddan üç nəfər millət vəkilinin seçilməsi nəzərdə tutulmuşdu (21, s. 32). Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin açılışında Araz-Türk Respublikasının rəsmi nümayəndəsi Paşa Əliyev də iştirak etmişdi (14, s. 50). Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin təşkili Araz-Türk Respublikasının türk-müsəlman əhalisi tərəfindən razılıqla qarşılanmışdı. Ordubaddan səlahiyyətli müvəkkil A.Hacıyevin imzası ilə Azərbaycan Parlamentinə təbrik teleqramı göndərilmiş, onun "Qafqaz müsəlmanlarının arzularını doğruldacağına, öz fəaliyyəti ilə bizim də müstəqil yaşamağa layiq, öz taleyimizi həll etmək və hüquqlarımızı müdafiə etmək iqtidarında olduğumuzu bütün dünyaya sübut edəcəyinə" əmin olduqlarını bildirmişlər (11, 1918, 10 dekabr). Diqqətəlayiqdir ki, ordubadlılar bu Parlamenti "öz parlamentləri" adlandırır və məlumat verirdilər ki, "onun yaradıcı işinə hər cür yardım etməyə hazırdırlar" (2, 1918, 10 dekabr).

Araz-Türk Respublikası hökumətinin əsas vəzifəsi bölgənin təhlükəsizliyini erməni basqınlarından qorumaq üçün silahlı dəstələr yaratmaq və onların fəaliyyətini təmin etmək idi. Hökumətin ilk iclaslarının birində aşağıdakı mühüm qərarlar qəbul edilmişdi: 1. Məcburi səfərbərlik; 2. Əsgərləri batalyonlara bölmək və kazarmalarda yerləşdirmək;

3. Hökumət anbarlarında olan buğdadan əsgərlərin qidalanması üçün 14 min pud verilməsini təmin etmək; 4. Təzə əsgərlərə hökumət tərəfindən geyim və lazımi əşyaların verilməsi; 5. Əsgərliyə getməyən əhalidən silahları yığaraq silahı olmayan əsgərlərə paylamaq; 6. 20-35 yaşları arasında olan kişilərin hamısını əsgərliyə çağırmaq (15, s. 106). Respublika ərazisində milis idarələri və onların sahə şöbələri yaradıldı. Könüllü xalq dəstələri – taborlar (batalyonlar) yaradılmasına da başlandı. Hərbi nazir İbrahim bəy Cahangiroğlunun köməyi ilə qısa müddətdə silahlı qüvvələr təşkil olundu. 500 nəfərlik süvari alayı yaradılmağa başlandı. Yaradılan könüllü xalq dəstələri təxminən 20 tabordan ibarət idi. Taborlardan 4-ü Naxçıvanda, 3-ü Şərur-Dərələyəzdə, qalanları isə Zəngəzur, Vedibasar və Qəmərlidə yerləşdirilmişdi. Hər taborda əsgərlərin sayı 250 ilə 500 arasında dəyişirdi (23, s. 375).

Nehrəm taboruna Kalba Muxtar, Cəhri taboruna Kalba Kərim, Dizə taboruna Qulu bəy, Məmməd Rza bəy, Şərur taboruna Hüseyn Əliyev, Yengicə qüvvələrinə Məşədi Ələsgər ağa, Kərkər qüvvələrinə Möhsün Camalov, Baş Noraşen, Düdəngə və Zeyvə kəndlərində yerləşən tabora Kərbəlayı Həbib bəy və Fətulla Hüseynov, Ordubad taboruna İbrahimxəlil Axundov, Şərur-Sədərək




*Naxçıvan Araz-Türk Respublikası*
*(noyabr 1918 – mart 1919-cu illər)*

taboruna isə Həsən Şahverdi oğlu başçılıq edirdilər (14, s. 52; 243, s. 103-104). Araz-Türk Respublikasının hərbi hissələrinin yaradılmasında və onların fəaliyyətinin təşkilində Osmanlı dövlətinin 9-cu ordusunun komandanı Yaqub Şövqü paşa və 9-cu diviziya komandiri, polkovnik Rüştü bəyin böyük əməyi olmuşdu. Araz-Türk hökumətinin başçısı Əmir bəy Nərimanbəyov türk ordusundan 18 maddə üzrə silah-sursat, canlı qüvvə, hərbi ləvazimat, paltar, yük arabaları və maddi vəsaitlə kömək göstərilməsini xahiş etmişdi (23, s. 376-377).

Yaradılan bütün qüvvələr Naxçıvanın, Araz-Türk Respublikasının başqa ərazilərinin qorunmasına və idarə olunmasına yönəldilmişdi. Könüllü müqavimət dəstələri erməni daşnaklarına layiqli cavab vermişdi. Xüsusilə, Şərur-Dərələyəz mahalındakı Zeyvə kəndi yaxınlığında baş verən döyüşdə 6 min nəfərlik könüllü müqavimət dəstələri erməni hərbi qüvvələrini darmadağın etmişdi (12, s. 194).

**Araz-Türk Respublikasının yaradılmasında başlıca məqsəd bölgəni erməni işğalından qorumaq idi. Hökumətin rəhbərliyi bu istiqamətdə fəal iş aparırdı və osmanlıların yardımından istifadə edirdi. Türkiyə dövlətinin Araz-Türk Respublikası hökuməti yanındakı daimi hərbi müşaviri Xəlil bəy və Osmanlı qoşunlarının Naxçıvanda saxlanılan 5 zabiti və 300 əsgəri bu istiqamətdə müəyyən işlər görmüşdülər** (28, s. 55). Xəlil bəy Türkiyə ilə Araz-Türk Respublikası arasında əlaqəni təmin edirdi. O istər Araz-Türk Respublikası dövründə, istərsə də sonrakı illərdə (1919-1920-ci illərdə) bölgə əhalisinin ermənilərin hücum və zorakılıqlarından qorunmasında xüsusi xidmətlər göstərmişdir.

**Araz-Türk Respublikasının Parlamentinin üzvləri, yerli ziyalılar, İrəvan quberniyası əhalisinin nümayəndələri bölgəni qorumaq üçün bütün imkanlardan istifadə etməyə çalışır, müxtəlif təşkilatlarla danışıqlar aparır, erməni basqınlarının qarşısını almaq üçün onlara müraciət edirdilər.** Parlament üzvlərindən T.Makinski, Ə.Makinski, R.İsmayılov, A.Şeyxülislamov, M.Məhərrəmov, P.Bayrambəyov, Y.Tahirov və A.Sultanovun Azərbaycan Xalq Cümhuriyyəti hökumətinə ünvanladıqları müraciətdə deyilirdi: "Erməni qoşun hissələri bütün Sürməli qəzası və İrəvan, Üçmüədzin və Şərur qəzalarının müsəlmanlar yaşayan hissəsini tutmuşlar və Naxçıvana sarı hərəkət edirlər. Bu zaman dinc əhalinin bir hissəsi qılıncdan keçirilmiş, bir hissəsi isə öz kəndlərindən qovulmuş və dağlardan keçərək İrana qaçmaq məcburiyyətindədir, bu isə labüd ölüm deməkdir" (7, v. 21-22). Həsən bəy Ağayev parlament üzvlərinin bu müraciətini Azərbaycan Parlamentinin 1919-cu il yanvarın 8-də çağırılan 7-ci iclasında oxudu. Bu faciəli faktları kədərlə qarşılayan Azərbaycan Parlamenti hökumətə

təklif etdi ki, **"sərəncamında olan bütün tədbirləri görsün ki, bütün bu bədbəxtliklərin qarşısı alınsın"** (7, v. 23).

Araz-Türk Respublikası Azərbaycan Xalq Cümhuriyyəti ilə sıx əlaqələr yaratmağa çalışmış, onunla birləşmək üçün yollar aramışdı. Araz-Türk Respublikası hökuməti Naxçıvanın Azərbaycanın ayrılmaz hissəsi olduğunu dəfələrlə elan edərək, Azərbaycan hökumətindən yardım istəmişdi. Bunlar Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən razılıqla qəbul olunmuş və kömək göstərmək üçün tədbirlər görülmüşdü. Lakin Araz-Türk Respublikası əhalisinin gözlədiyi köməyi Azərbaycan Xalq Cümhuriyyəti ona göstərə bilmirdi (14, s. 50).

Azərbaycan Xalq Cümhuriyyəti Araz-Türk Respublikasının əhalisinin vəziyyətini öyrənmək üçün İrəvan quberniyası müsəlmanlarının həmyerlilər cəmiyyətinin nümayəndəsi Mirabbas Mirbağırovu ora göndərdi. Araz-Türk Respublikasına kömək üçün göndərilən 12 zabit də Gəncədə M.Mirbağırova qoşuldu (3, s. 8).

Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndələrini Ordubadda və Naxçıvanda böyük ruh yüksəkliyi və təntənə ilə qarşıladılar. M.Mirbağırov Naxçıvan rəhbərlərinə məlumat verdi ki, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti onlara kömək göstərməyə hazırdır. Təsadüfi deyil ki, Azərbaycan hökuməti buraya 1 milyon manat pul göndərmişdir. Pulu gətirən Paşa Bayramov və Yusif bəy Qazıyev müvəqqəti olaraq Tiflisdə ləngimişlər (14, s. 54). Tiflis yolu ilə gətirilən pul Naxçıvana çatmadığından Bakıya qaytarıldı. Yardım pullarının Naxçıvana gətirilə bilməməsi regiondakı mövcud sıxıntıların artmasına səbəb oldu.

M.Mirbağırov və onunla Naxçıvana gələn nümayəndələr 1919-cu il fevralın 23-də Araz-Türk Respublikasının hökumət üzvləri ilə iclasda iştirak etdilər. **Naxçıvanlılar Azərbaycanın tərkibində olmaq arzularını Bakıdan gələn nümayəndələrə bildirdilər. Naxçıvanın könüllü surətdə Azərbaycan Xalq Cümhuriyyətinə birləşməsi haqqında akt imzalandı. Akt siyasi, hərbi, iqtisadi, maddi və mədəni məsələlərə aid bəndlərdən ibarət idi. Akt hökumət üzvləri, Milli Şura üzvləri və əhalinin nümayəndələri tərəfindən imzalanmış, hökumət möhürü ilə təsdiq edilmişdi.**

Bu dövrdə Naxçıvanda Cəfərqulu xanın tərəfdarları ilə Araz-Türk Respublikası arasındakı münasibətlər lazımi səviyyədə deyildi. Bu isə təhlükəli vəziyyət yaradırdı. Bunu bilən Azərbaycan Xalq Cümhuriyyəti nümayəndələri "Cəfərqulu xanın tərəfdarları və əleyhdarları arasında qızışan ehtirasları söndürməyə nail oldular" (14, s. 55).

Araz-Türk Respublikasına gələn M.Mirbağırov onun işi ilə tanış olmuş, əhali ilə söhbətlər etmişdi. Yekun olaraq o, diyar ilə bağlı maraqlı nəticələr əldə etmiş və onu yazılı şəkildə Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası-

na təqdim etmişdi:

1. Bu diyarı idarə etmək üçün müttəfiqlərin, İranın, Ermənistanın təsiri ilə mübarizə aparmaq qabiliyyətinə malik və xanlara, sahibkarlara rəğbəti olmayan, başqalarının təsiri altına düşməyən, müəyyən bir siyasəti inadla yeridə bilən, mərd, qətiyyətli adam olan və rüşvətə meyil etməyən azərbaycanlı general-qubernatorun təyin olunması zəruridir.

2. Yuxarıda göstərilən keyfiyyətlərə malik bir adamı hərbi nazirin nümayəndəsi təyin etmək zəruridir.

3. Mülki və məhkəmə idarələrini idarə etmək üçün baş məmurlar mütləq azərbaycanlılardan təyin edilməlidirlər.

4. Yerli hərbi işin təşkili üçün əvvəl göndərilənlərin az olduğunu nəzərə alaraq başçıları istedadlı polkovnik olmaqla daha bir dəstə zabit göndərmək lazımdır (14, s. 56).

M.Mirbağırovun təkliflərindən sonra Azərbaycan hökuməti Naxçıvanın problemləri ilə sistematik məşğul olmağa başladı. Lakin 1919-cu ilin yanvar ayında Naxçıvan ingilislər tərəfindən tutulduğundan və onların Əmir bəy hökumətinə müsbət münasibət bəsləməməsi işi çətinləşdirirdi. Bununla belə Azərbaycan Xalq Cümhuriyyəti Araz-Türk hökumətinə iqtisadi və hərbi yardım göstərmək istəyirdi. Özünün çox ağır iqtisadi və maliyyə vəziyyətinə baxmayaraq, Azərbaycan hökumətinin 1919-cu ilə aid büdcə layihəsində yalnız Bakı-Culfa dəmir yolunun tikintisinə vəsait ayırması da çox böyük əhəmiyyəti olan bir fakt idi (5, v. 3).

Araz-Türk Respublikası Azərbaycan hökuməti ilə münasibətləri sıxlaşdırmaq üçün bir sıra tədbirlər görmüşdü. Belə tədbirlərdən biri Araz-Türk Respublikasının hərbi rəisi Bəhram xan Naxçıvanskinin 1919-cu ilin martın əvvəlində Bakıya göndərilməsi idi. B.Naxçıvanski yolüstü Tiflisdə və Gəncədə danışıqlar aparmışdı (22, s. 19). Məhz Bəhram xan Naxçıvanskinin Bakıya səfərindən və Azərbaycan Xalq Cümhuriyyəti rəhbərləri ilə danışıqlarından sonra iki cümhuriyyət arasında əlaqələrin canlanması müşahidə edilir. Danışıq və razılaşmalardan sonra Azərbaycan hökumətinin Naxçıvana göndərdiyi 10 nəfərlik zabit heyəti Araz-Türk Respublikasının hərbi hissələrində təlim keçmiş, kəşfiyyat işlərinin təşkilində və sərhəd xətlərinin möhkəmləndirilməsində iştirak etmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti Naxçıvanla əlaqələrini yaxşılaşdırmaq üçün Ağdam-Karyagin-Naxçıvan poçt-teleqraf xəttinin qaydaya salınması və mühafizə edilməsinə diqqəti artırdı. Nəticədə bu hissədəki poçt-teleqraf idarələrinə silahlı mühafizə dəstələri ayrıldı (14, s. 61).

Azərbaycan hökuməti Naxçıvan, Şərur, Sürməli, Vedibasar və Milistan bölgələrinə T.Makinski, R.İsmayılov və Qənizadədən ibarət nümayəndə heyəti göndərmək qərarına gəldi. Nümayəndə heyətinin məqsədi erməni qoşunlarının təcavüzündən ziyan çəkmiş əhalinin eh-

tiyacı üçün onlara yardım göstərmək, qaçqınların vəziyyətini müəyyən etmək idi.

Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvana, Araz-Türk hökumətinə diqqəti artırmağa çalışırdı.

Araz-Türk Respublikası ilə Cənub-Qərbi Qafqaz Demokratik Cümhuriyyəti (Qars Respublikası) arasındakı münasibətlər, qarşılıqlı əlaqələr də maraqlıdır. Son illərə qədər bu iki cümhuriyyət arasında fərq tapmaq çətinlik yaradırdı, bunlar bir-birinə qarışdırılırdı. Çox yaxşı haldır ki, həm Azərbaycan Respublikasında, həm də Türkiyə Cümhuriyyətində hər iki cümhuriyyətin tarixinə dair araşdırmalar aparılmış və bu indi də davam edir.

Qeyd etməliyik ki, XX əsrin əvvəllərində Cənub-Qərbi Qafqaz ərazisində olan yerli türk əhalisinin şanlı "Hürriyyət və istiqlal" mücadiləsi, azadlıq uğrunda qeyri-adi qəhrəmanlıqla bağlı mübarizəsi başlayır. Xalq birləşir, təşkilatlanır, siyasi tədbirlər görür. Nəticədə, "Axıska hökuməti", "Araz-Türk Cümhuriyyəti", "Qars Müsəlman Şurası", "Milli Şura hökuməti" və "Cənub-Qərbi Qafqaz Demokratik Cümhuriyyəti" adlanan türk respublikaları qurulurdu (1, 14, 19, 23, 25, 26).

Cənub-Qərbi Qafqazda ilk müstəqil türk respublikası "Axıska hökuməti" olmuşdur. Bu hökumət türk ordusu Axıska-Axılkələkdən çıxarılacağı ərəfədə qurulmuşdu (29 oktyabr 1918 - 30 noyabr 1918). Noyabrın 30-da (1918) isə "Qars Müsəlman Şurası" adlı yerli hökumət yaradılır. Noyabrın 15-də keçirilən I Qars konfransında Qars, Axıska, Artvin və Batum vilayətləri birləşdirilərək "Milli Müsəlman (İslam) Şurası" qurulur (20). **Noyabrın 30-da keçirilən konfransda Araz-Türk Respublikası ilə Milli Müsəlman (İslam) Şurası birləşərək Batumdan Ordubada qədər ərazidə "Qars Müsəlman Şurası" hökuməti yaradılır. Araz-Türk Respublikasının hərbi naziri İbrahim bəy Cahangiroğlu şura rəisi seçilir** (25, s. 69).

17-18 yanvar 1919-cu ildə III Qafqaz konfransı keçirilir. Həmin gecə qəbul edilən qərara əsasən sədr İbrahim bəy Cahangiroğlu olmaqla müvəqqəti Milli Cənub-Qərbi Qafqaz hökuməti təşkil edilir. Axıska, Axılkələk, Ərdahan, Oltu, Kağızman, İqdır, Şavşat, Qəmərli, Naxçıvan, Ordubad, Qars, Batum bu hökumətin tərkibinə daxil idi. Yəni Milli Şuranın sərhədləri eyni ilə mühafizə edilirdi (24, s. 130).

Bu birləşməni əsas götürən bir sıra tədqiqatçılar Araz-Türk Respublikasının mövcudluğunu 3 (18) noyabr 1918-30 noyabr 1918-ci il tarixləri ilə əlaqələndirir, 30 noyabr tarixini Araz-Türk Respublikasının fəaliyyətinin son tarixi hesab edirlər. Lakin İ.Musayev, A.Hacıyev, İ.E.Atnurun da göstərdikləri kimi, bu birləşmə sırf formal səciyyə daşımış, sadəcə 1918-ci il dekabrın 1-də Qars Müsəlman Milli Şurası tərəfindən

"Cənub-Qərbi Qafqaz Cümhuriyyətinin yaranması haqqında" qərar-akt qəbul edilərkən onun ərazisi sayılan mahalların sırasında Naxçıvan və Şərur qəzalarının da adları çəkilmişdi". Araz-Türk Respublikası Cənub-Qərbi Qafqaz Cümhuriyyəti ilə paralel olaraq öz fəaliyyətini davam etdirmişdi. 1919-cu ilin yanvarında keçirilən böyük Qars konfransında (III konfrans) mərkəzi Qars olmaqla Cənub-Qərbi Qafqaz Cümhuriyyəti elan edilir və hökumət rəisi yenə də İbrahim bəy Cahangiroğlu seçilir. **Müstəqil daxili və xarici siyasət yeridən bu hökuməti 12 aprel 1919-cu ildə ingilislər süquta uğradır və İbrahim bəy Cahangiroğlu başda olmaqla 13 nəfər parlament üzvü Malta adasına sürgün edilir** (26, s. 77).

Bəzi tədqiqatçılar Araz-Türk Respublikasının fəaliyyətini 1919-cu ilin may-iyun ayına qədər davam etdiyini yazmışlar (14, s. 237). **Fikrimizcə, Araz-Türk Respublikasının süqutu 1919-cu ilin mart ayına təsadüf edir.** Bu barədə bir sıra faktlar vardır. 1919-cu ilin martın əvvəlində Araz-Türk hökuməti öz nümayəndələrini Bakıya göndərmişdi. O dövrün mətbu orqanlarında Araz-Türk Respublikasının xüsusi missiyasının 1919-cu il martın 8-də Naxçıvandan Bakıya gəlməsi haqda məlumat verilir (26; 1919, 9 mart). Araz-Türk hökuməti tərəfindən Azərbaycana-Bakıya göndərilmiş Paşa Bayramov Tiflisdə Bəhram xanla görüşmüşdür. Bəhram xan ona Araz-Türk hökumətinin yıxıldığını, yerində onun mənsub olduğu hökumətin qurulduğunu bildirmişdi. Həqiqətən də, ermənilər 1919-cu ilin yanvar-fevral aylarında Qəmərliyə hücum edərkən keçmiş Araz-Türk Respublikası öz-özünə dağıldı və Kalbalı xan Naxçıvan dəstəsi ilə Şərur əhalisinin köməyinə gedərək erməni silahlı dəstələrini darmadağın etdi. Bölgədə Cəfərqulu xanın, Kalbalı xanın və Kərim xan İrəvanlının daxil olduğu hökumət yarandı (6, v. 3). Başqa bir arxiv materialı da bu faktı təsdiq edir: "Bütün bu hadisələrin nəticəsində Əmir bəy hökuməti süquta uğradı, Naxçıvanda Cəfərqulu xan, Kalbalı xan və Kərim xan başda olmaqla yeni hökumət təşkil edildi" (4, v. 9-10). İrəvan quberniyası müsəlmanları həmyerlilər cəmiyyətinin nümayəndəsi M.Mirbağırov 1919-cu il 25 fevralda Naxçıvanda Kalbalı xanla görüşmüş və burada Araz-Türk Cümhuriyyətinin artıq dağıldığını söyləmişdi (9, v. 87). Göstərilən fakt və nümunələr təsdiq edir ki, 1918-ci il 3 noyabrda yaradılan Araz-Türk Respublikası 1919-cu ilin martında süquta uğramışdır.

Araz-Türk Respublikasının qısa müddət fəaliyyət göstərməsinə baxmayaraq bölgənin taleyində mühüm rol oynamaqla, Azərbaycan Xalq Cümhuriyyətinin ərazi bütövlüyünü təmin etdi. O, Naxçıvan, Şərur, Ordubad və digər bölgələrin əhalisinin düşmənə qarşı mübarizə üçün birləşdirilməsində mühüm rol oynamaqla yanaşı, bölgənin

ermənilər tərəfindən işğal edilməsinə imkan vermədi. Araz-Türk Respublikası dövründə əldə edilmiş nailiyyətlər təkcə o dövr üçün yox, bütövlükdə bölgənin taleyi, bu günü və gələcəyi üçün də çox böyük əhəmiyyətə malikdir.

**Ədəbiyyat:**


1. Abbasoğlu A. Qafqazda türk cümhuriyyətləri. "Ədəbiyyat" qəzeti. 1991, 4 yanvar.
2. "Azərbaycan" qəzeti.
3. Azərbaycan Republikası Dövlət Arxivi (ARDA). f. 894, siy. 2, iş 81.
4. ARDA, f. 894, siy. 2, iş 95.
5. ARDA, f. 894, siy. 10, iş 58.
6. ARDA, f. 894, siy. 10, iş 76.
7. ARDA, f. 895, siy. 1, iş 13.
8. ARDA, f. 970, siy. 1, iş 215.
9. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (ARPİİ SSA), f. 277, siy. 2, iş 22.
10. Cəfərov F. Naxçıvan qəza polisi. Bakı, "Nurlan", 2008, 192 s.
11. Əzizov T. Azərbaycan XX əsrin əvvəllərində. Bakı, "Zaman", 1997, 256 s.
12. General Veysəl Ünüvar. Naxçıvan: təlatüm və burulğanlar (1920-1921). Türkiyə türkcəsindən çevirən Əbülfəz Quliyev. Naxçıvan, "Əcəmi" NPB, 2006, 104 s.
13. Hacıyev A. Qars və Araz-Türk Respublikalarının tarixindən. Bakı, "Azərnəşr", 1994, 119 s.
14. Hüseynzadə L. Araz şahiddir. Türk ordu generalı Kazım Qarabəkir paşa Naxçıvanda (1918-1920-ci illər). Bakı, "Nurlan", 2001, 80 s.
15. Mədətli E. 1918-1921-ci illərdə Türkiyə hökumətinin siyasətində Naxçıvan. "Naxçıvan" jurnalı, 2000, №2, s. 48-54.
16. Mirzə Bağır Əliyev. Qanlı günlərimiz. (1918-1920. Naxçıvan). Bakı, "Azərnəşr", 1993, 412 s.
17. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, "Bakı Universiteti" nəşriyyatı, 1998, 385 s.

18. Musayev İ. Araz-Türk Respublikası. Bakı Universitetinin Xəbərləri (xüsusi buraxılış). Bakı, 1999, № 3, s. 107-121

19. Mustafa N. Milli mücadilə qəhrəmanı – İbrahim bəy Cahangiroğlu. "Xalq qəzeti", 1998, 30 may.

20. Naxçıvan Ensiklopediyası: 2 cilddə, I cild, İstanbul, Bakanlar Medya, 2005, 360 s.

21. Naxçıvan tarixi atlası. Bakı Kartoqrafiya Fabriki, 2010, 56 s.

22. Acar Z.Z. Araz-Türk Cumhuriyeti / II Uluslararası Aras havzası sempozyumu. İstanbul, 13-15 Aralıq 2001, s.372-386.

23. Atnur İ.E. Osmanlı yönetiminden Sovyet yönetimine kadar Nahçıvan (1918-1921). Ankara, Türk Tarih Kurumu, 2001, 488 s.

24. Gökdemir A.E. Cenubi-Qarbi Kafkas hükumeti. Ankara, 1998, 289 s.

25. Гаджиев А. Демократические республики Юго-Западного Кавказа (Карсская и Араз-Тюркская республики). Баку, "Nurlan", 2004, 280 s.

26. Газета "Азербайджан".

27. Мадатов Г. Победа Советской власти в Нахчыване и образование Нахчыванской АССР. Баку, 1968, 188 с.

**Исмаил Гаджиев**

**Араз-Тюркская Республика**

**Резюме**

В статье на основе новых документов и материалов исследуется история Араз-Тюркской Республики. Внимание автора сосредоточено на причинах, побудивших создание Араз-Тюркской Республики, истории создания, центре, лидерах, защите территории от армянских дашнаков, падении, исторической роли республики, связях с Азербайджанской Народной Республикой и Юго-Западной Кавказской Республикой. Из исследований становится ясно, что деятельность Араз-Тюркской Республики еще не изучена исследователями в должной мере, в изучении истории Араз-Тюркской Республики допущено много ошибок. Статья преследует цель уточнения исторических фактов и событий.

**Ismayil Hajiyev**

**Araz-Turk Republic**

**Summary**

The history of Araz-Turk Republic is investigated on the basis of new documet and materials.

The author pays attention to the necessity of the creation of Araz-Turk Republic, its centre, leaders, his defending the region from the attackes of armenian dashnaks, the decline, the historical importance, its relations with Azerbaijan Democratic Republic and South-West Caucasian Democratic Republic, and some historical facts and events are cleared. The investigations shows that the activity of this republic is not learnt enough in the books and articles of some investigators and even their have some mistakes. The article had been written for to specify historical facts and events.

***Redaksiyadan***

***Redaksiyamıza daxil olan məktublarda müəlliflər çox az bir müddətdə də olsa, Azərbaycan ərazisində yaradılıb fəaliyyət göstərən Araz-Türk Respublikası haqqında əsaslı məlumat verməyi xahiş edirdilər.***

***Bu barədə görkəmli tarixçi alim, akademik İsmayıl Hacıyevə müraciət etdik. Xahişimizi nəzərə alıb "Araz-Türk Respublikası" adlı məqaləni hazırladığına görə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevə dərin minnətdarlığımızı bildiririk.***

**Məqalə redaksiyaya daxil olmuşdur: 25.01.2016**
**Çap üçün qəbul olunmuşdur: 16.02.2016**